Elmi Xəbərlər Jurnalı Nömrə 5, 2025 43-51
DOI:10.30546/gdu.5.2025

UOT:39

# AMERİKA XALQININ AĞACDAN HAZIRLADIQLARI YAŞAYIŞ MƏSKƏNLƏRİ VƏ EV TİPLƏRİ

***t.ü.f.d., Pərinaz İslam qızı Sadıqlı****
***Bakı Avrasiya Universiteti***
***ORCID Id: 0000-0003-3162-3414***
***perinazsadiqli@yahoo.com***

**Xülasə:** *Hər bir xalqın tarixi, coğrafiyası, ədəbiyyatı ilə yanaşı, onun etnoqrafiyası da öyrənilməlidir. Etnoqrafiyanın əsas tərkib hissələrinə maddi mədəniyyət, mənəvi mədəniyyət və ailə məişəti daxildir. Maddi mədəniyyət dedikdə yaşayış məskənləri, təsərrüfat həyatı, sənətkarlıq, geyim və bəzəklər, yeməklər və içkilər, nəqliyyat vasitələri və s. nəzərdə tutulur. Elm, təhsil, ədəbiyyat, xalq təbabəti, musiqi, oyun və əyləncələr, inamlar, dini etiqadlar və s. isə mənəvi mədəniyyətin mühüm tərkib hissələridir. Ailə məişətinə ailə, nikah, dəfn mərasimi, toy adətləri, qonaqpərvərlik, ad qoyma, uşaqların tərbiyə edilməsi və s. daxildir.*

*Amerikanın eskimos və aleut tayfalarının yaşadıqları ərazi tarixi etnoqrafik əyalət hesab olunur. Onlar Amerikanın Arktika və subarktika zonasında Berinq boğazından tutmuş Qrenlandiyaya qədər olan ərazidə yaşayırlar. Əsasən Alyaska, Kanada, Meksika, ABŞ və Qrenlandiyada məskunlaşmışlar.*

*Amerikada yaşayan Eskimos və aleut tayfalarının çox zəngin və rəngarəng mədəniyyətləri var. Bu mədəniyyət Azərbaycanda hələ də lazımınca öyrənilməmişdir. Halbuki müasir dövrdə onun öyrənilməsinə böyük ehtiyac var. Bu ehtiyacı yaradan birinci səbəb eskimos və aleut tayfalarının mədəniyəti ilə türk xalqının mədəniyyəti arasındakı oxşarlıqlar və bəzi eyniliklərdir. Eskimos, aleut, alqonkin, irokez, mayya, astek, ink tayfalarının mədəniyyəti ilə yaxından tanış olduqca bu oxşarlıq və eyniliklər daha aydın görünür.*

*Bu məqalədə Amerikanın eskimos, aleut, alqonkin, irokez, mayya, astek, ink kimi hindu qəbilələrinin yaşayış məskənləri və yaşayış evləri araşdırılmışdır. Yeri gəldikcə onlarla türk xalqlarının evləri arasındakı oxşarlıqlara da toxunulmuşdur.*

**Açar sözlər:** yerli əhali, ev, ağac, mədəniyyət, Amerika.
**Ключевые слова:** коренные народы, дом, дерево, культура, Америка.
**Keywords:** local population, house, tree, culture, America.

Amerika deyəndə bizim yadımıza, ilk növbədə, hindu tayfaları düşür, çünki onlar qitənin ən qədim və yerli-avtoxton əhalisidir. Tarixdən bəllidir ki, ağdərililər bu qitəyə sonradan gəliblər.

Amerika hindularının antropoloji əlmətləri onların monqoloid irqinə xas xüsusiyyətlərə malik olduğunu və buraya Asiyadan köçüb gəldiklərini təsdiqləyir. Alimlərin bir çoxu amerikanoidləri böyük monqoloid irqinin xüsusi bir qolu kimi təsnif edirlər. Amerikanoidlərin saçları olduqca cod qara və gözləri qaradı. Almacıq sümükləri bir qədər irəliyə doğru çıxmışdır. Dərilərinin rəngi sarımtıl rəngdən qırmızı-qəhvəyi rəng çalarlarına qədər dəyişir. Bu və digər əlamətlər onlarla monqoloidlər arasında daha çox olduğunu söyləməyə əsas verir. Lakin Amerika hindularının burunları quruluşuna görə qartalın burnuna oxşayır. Bu da onları monqoloid irqindən fərqləndirən əsas əlamətlərdən biridir. Arizona Dövlət Universitetinin antropoloqu Christ Turner özünün son tədqiqatlarında belə bir nəticəyə gəlmişdir ki, yerli amerikalıların və Asiyanın Sibir tundrasında yaşayan insanların xarici görünüşləri oxşardır..... [1, səh.64]. O Sibir tundrasında yaşayan insanlar deyəndə türk əsilli şamanları nəzərdə tutur.

Mehmet Ali Eroğlu özünün "Kuzey Amerika Kızılderilileri ve Türk Kültüründe Ok ve yay çantaları" adlı məqaləsində hinduların köç yolları haqqında danışarkən qeyd edir ki:

DOI:10.30546/gdu.5.2025

"Asiya qızıldərililəri miladdan 17-20 min il öncə Alyaskadan Berinq boğazını keçərək Amerikaya gəlmişlər. Bunların bizimlə qohumluq əlaqələri var. Daha sonra qeyd edir ki, Türk dediklərimiz insanlar isə Asiyadakı Qızıldərililərlə Ural dağlarından şərqə doğru gedən bir Alp irqidir. Üçüncü olaraq, Miladdan öncə 1200-ci ildə prototürklərin bir qolu gəmilərlə Meksikaya gedərək orada Olmek mədəniyyətini yaratmışlar. Sonrakı dövrlərdə meydana çıxan Astek və İnka mədəniyyətinin özü belə Olmek mədəniyyətindən təsirlənmişdir." [2, səh.988-989].

Xasbulatov "**Истоки этнической и культурной общности тюрков и индейцев Северной Америки (антропологический аспект)" "Türk və Şimali Amerika hindularının etnik və mədəni ümumiliyinin qaynaqları"** adlı **məqaləsində türk xalqlarının Şimali Amerikanın hindu qəbilələri ilə əlaqəsini tədqiq etmişdir. Burada o, qeyd etmişdir ki, biz bunu hər iki Amerika qitəsinin bütün hinduları haqqında deyə bilmərik, çünki etnik qruplar və mədəniyyətlər arasında kifayət qədər fərqlər var. Türkçülük əlamətləri yalnız bəzi tayfalarda özünü göstərir. Şimali Amerikada, Mərkəzi Amerikada və Meksikada mövcud olan Klovis mədəniyyəti e.ə. 12.000-11.000-ci illərdə mövcud olmuşdur və Paleoindian yerlərinin əksəriyyəti elə bu mədəniyyət ilə eyniləşdirilir. Biz bu mədəniyyəti eramızdan əvvəl 13.000-10.000-ci illərdə Sibirdə mövcud olmuş mədəniyyətlər ilə müqayisə edə və paralellər apara bilərik [5, səh.178-179].**

Yaşayış evlərinin hazırlanmasında yerli tikinti materiallarına üstünlük verilirdi. Ona görə ev tikintisində müxtəlif materiallardan istifadə edirdilər. Bu materialların arasında ağac birinci yeri tuturdu. Bu da onunla bağlıydı ki, qədim dövrdə insanlar daha çox çay və meşə qırağında məskunlaşırdılar. Qədim insanlar daha çox ağac evlərdə yaşayırdılar. Qazma evlərin tikintisində də ağacdan istifadə olunurdu. Kərpic və daş evlərdə də qapı-pəncərələr, döşəmə və tavan, pilləkən və s. yenə ağacdan hazırlanır. Hətta sonrakı dövrlərdə qida ehtiyatının artması səbəbilə onları saxlamaq üçün xüsusi qazmalardan istifadə edirdilər [3, səh.1679]. Bu cür qazmaların tikintisini də ağacsız təsəvvür etmək olmur.

Amerikada yaşayan eskimosların hər bir yaşayış məntəqəsində ən çoxu 3-4 qohum ailə məskunlaşırdı. Onlar xırda komalarda yaşayırdılar. Bu cür komalar yay və qış evləri olaraq nəzərdə tutulurdu. Bu da o deməkdir ki, eskimoslarda iki cür ev tipi olmuşdur-qış və yay evləri. Qədim dövrdə Amerika eskimosları əsas qış evi sayılan "qazma evlər"in divarlarını daşdan hörürdülər. Meşə olan yerlərdə bu damların üstünü ağacla örtürdülər. Ağacların üstünə yarpaqlı şax-şəvəl döşəyib üstünü torpaqlayırdılar. Meşə materialı olmayan yaxud az olan yerlərdə bu cür damların üstünü balina qabırğaları ilə bağlayırdılar, onun da üstünə suiti dərisi çəkirdilər. Suiti dərisinin üstündən təzədən bir qat süpürgə kolu döşəyirdilər. Ən sonda isə yenidən suiti dərisi döşəyərək möhkəm bağlayırdılar.

Amerikanın yerli əhalisinin özünəməxsus memarlıq xüsusiyyətləri olmuşdur. Belə ki, irokezlər arasında uzun evlər, Böyük Düzənlik tayfaları arasında tipi, Şimali Amerikanın şərq və cənub-şərqindəki hindular arasında viqvamlar və Pueblolar arasında çoxotaqlı evlər inşa etmək xarakterik idi [4, səh.3]. Bu tikililərdən həm yaşayış məqsədilə, həm də mərasimlərin keçirilməsi zamanı istifadə edirdilər.

Son araşdırmalara görə, Amerikanın Şimal-qərb ərazisinə insanlar 10.000 il əvvəl gəlmişlər. Onlar burada əsasən ağacdan hazırlanmış evlərdə yaşamışlar. Evlərin dam örtükləri müxtəlif cür olurdu. Evlər əsasən eyvan, balıqbeli və beşik formalarında inşa edilirdi. Bir neçə ailə bir evdə yaşayırdı. Əsasən sidr ağacından, bundan əlavə olaraq dağ keçisinin yunundan və müxtəlif quş lələklərindən istifadə etməklə evlərin içini bəzəyirdilər [3, səh.1680].

İlin yay aylarında Amerika eskimosları üstü müxtəlif heyvanların gönü ilə örtülmüş çadır evlərdə yaşayırdılar. 1-ci şəkildən göründüyü kimi, bu evlər türklərin çadır evlərinə çox

DOI:10.30546/gdu.5.2025

oxşayır. Türklər də çox qədim dövrlərdən indiyə qədər yay aylarında yaylağa köçür və bu cür çadır evlər qururlar. Bu cür çadır evlər asanlıqla qurulur və sökülüb-yığılır. Onların qəfəsi ağac çubuqlardan hörülür və üstünə keçə, çadır və s. çəkilir.

Eskimoslar çadırdan qurulmuş bu cür yay evlərinin içinə girəndə üst paltarlarını soyunurlar. Ancaq bel sarğılarını bellərindən açmırlar. Eskimoslar çadır evləri quranda dəniz dovşanının qurudulmuş bağırsaqları şüşə kimi şəffaf olduğuna görə ondan pəncərə düzəldirdilər. Bu cür evləri onlar Tupik adlandırırdılar. Bu cür pəncərəli evləri ilk dəfə onlar yaratmışlar. Hazırda belə çadır evlərdən istifadə olunur.



***1-ci şəkil. Eskimosların yay evi***

Alyaskada yaşayan eskimosların yaşayış evlərindən biri də yarımqazma evlərdir.

Yarımqazma evlərin əvvəlcə yeri seçilir və evin ölçüləri müəyyənləşdirilir. Bundan sonra torpaq qazılır. Evin bir hissəsi torpağın içinə düşür. Sonra ev üçün qazılmış yerin hər küncünə təxminən dörd metr hündürlüyündə ağac dirəklər basdırılır. Ev böyük olanda dörd yox, altı yaxud səkkiz dirək də basdırırlar. Evin uzununa küncdəki dirəklərin arasına bəzən bir-iki dirək də artırırlar. Dirəklərin arasını yerdən tavana qədər taxtayla bağlayırlar. Evin damının tən ortasında kvadratşəkilli baca qoyurdular. Baca havanı dəyişmək və gün düşmək üçünüydü. Torpağın üstünə taxtadan döşəmə vururdular. Belə evlərin ocağı bacanın altında, evin ortasında yerləşirdi. Belə olanda həm tüstü evə dolmurdu, baca onu sorub aparırdı, həm də evin hər yeri eyni dərəcədə isinirdi. Onlar evin divarlarında ağacdan təxminən hər biri metr yarım enində olan taxçalar düzəldir, yüklərini və qab-qacaqlarını onlara yığırdılar. Taxtları da ağacdan olurdu və onları divara söykək düzəldirdilər, çünki eskimoslar yatanda ayaqlarını divara sarı uzadırdılar. Belə evlərin hərəsində bir neçə eskomos ailəsi yaşayırdı. Ailələr bir-birinə qohum olurdu. Hər ailənin ya ayrıca taxtı olurdu, ya da bir böyük taxtı ailənin sayı qədər hissələrə bölürdülər. Belə halda hər bir ailənin yeri ilə o birilərinin arasına həsirdən pərdə çəkirdilər.

Atapask qəbilələrinin yay evləri digər qəbilələrinkindən konusvari şəkildə olmağıyla fərqlənirdi. Həmin yay evlərinin üstünü örtmək üçün şimal bölgəsində yaşayanlar karibunun gönündən, cənub bölgəsində yaşayanlar isə müxtəlif ağacların  qabığından istifadə edirdilər. Yukon çayının hövzəsində yaşayan atapasklar isə daha çox yarımqazma evlərdə yaşayırdılar.

Amerikada yaşayan Preri hindu qəbiləsinin ən geniş yayılmış yaşayış evlərindən biri “tipi” adlanırdı. 2-ci şəkildən göründüyü kimi, bu cür evlərin qəfəsi nazik və asan əyilə bilən çubuqlardan toxunurdu. Qəfəsin üstünü bizon dərisi ilə örtürdülər. Tipi evləri daha çox köçəri ovçuluqla məşğul olan bu qəbilənin həyatına tamamilə uyğun gəlirdi. Külək aparmasın deyə, evin dörd həndəvərinə ağac mıxçalar basdırıb çubuq qəfəsin üstünə çəkilmiş gönün ətəklərini bir neçə yerdən ona bağlayırdılar. Belə evlərin qurulması, sökülməsi və bir yerdən başqa yerə daşınması yalnız qadınların üzərinə düşürdü, kişilər bu işlə məşğul olmurdular. Bəlkə elə ona görə də tipi evlərinin  mülkiyyət hüququ yalnız qadınlara məxsusu idi.

DOI:10.30546/gdu.5.2025

Uzun dirəklərdən hazırlanan "Tipi" adlanan evlərdən həm də müvəqqəti sığınacaq kimi istifadə etmək olurdu. Döşəmələrdə istifadə olunan yüngül ayaqaltıların həm yığılması, həm də daşınması daha rahat olurdu [6, səh.4]. Mənbələrdən əldə etdiyimiz məlumatlara əsasən deyə bilərik ki, müasir dövrdə də Amerikanın yerli əhalisi onlar üçün nəzərdə tutulmuş rezervasiyalarda eynilə tipi adlanan evlərdə yaşayırlar [7, səh.137].



***2-ci şəkil. Preri hindularının "Tipi" (Te-pee) adlı sökülüb-yığılan evləri***

Prerinin bəzi qəbilələri əkinçiliklə məşğul olduğuna görə, onların daimi yaşayış məskənləri və evləri vardı. 3-cü şəkildən göründüyü kimi, bu evlər daha çox düzbucaqlı və ya günbəzvari şəklində tikilmiş qazmalar idi. Bu zaman ağacdan daha çox istifadə olunurdu. Onların damını ağac qabığı və ya həsirlə örtürdülər.



***3-cü şəkil. Preri hindularının daimi yaşayış evləri***

Kaliforniyanın şimal-qərb hissəsində yaşayan hindular əsasən çadır evlərdə yaşayırdılar. Çadırın hündürlüyü 8 metr, eni isə 16-25 metr olurdu. Onlar nəinki evlərin inşası zamanı ağaclardan istifadə edirdilər, hətta geyimlərin hazırlanması zamanı müxtəlif ağacların qabıqlarından, otlardan, bitkilərdən istifadəyə üstünlük verirdilər [3, səh.1681].

Ovalar bölgəsinin əhalisi də əsasən konusvari formada hazırladıqları çadırlarda yaşayırdılar. Çadırın ətrafına dirəklər basdırılırdı. Qadınlar camış dərilərini biri-birinə tikdikdən sonra onu çadırın ətrafına dolayırdılar. Bu tipli çadırlar əsasən 4 metr uzunluğunda və 4 metr enində hazırlanırdı. Çadırın üst hissəsində tüstünün çıxması üçün baca yeri qoyulurdu [3, səh.1681].

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, ağaclardan nəinki evlərin, hətta məişət əşyalarının, ovçuluqda istifadə olunan oxların və ox qabının, musiqi alətlərinin, ovçuluqda istifadə edilən müxtəlif növ tələlərin hazırlanmasında da istifadə edirdilər. Məsələn, qamışlardan müxtəlif səbətlər hörürdülər.

DOI:10.30546/gdu.5.2025

Odlu torpaq sakinlərinin yaşayış evləri isə ən sadə daxmalar idi. Belə evlər türklərdə də var və onlara daxma, qara dam, qazma və s. deyirlər.

Alqonkinlərin dilində irokezlər və ya “irokular” “əsl gürzələr” mənasını verir. Dilləri xoka-siu dil ailəsinə mənsubdur. İrokezlər nəsli qruplar şəklində 4-cü şəkildə görünən uzun evlərdə yaşayırdılar.



***4-cü şəkil. İrokezlərin uzun yaşayış evi***

Belə evlərə türk xalqlarının bəzilərində indi də rast gəlinir. Həmin evlərdə yalnız yay aylarında yaşayırlar.

4-cü şəkildən göründüyü kimi irokezlərin həmin evləri böyük və uzun olurdu. Onları əsasən dördbucaqlı şəklində quraşdırırdılar. Belə evlərin qurulmasında daha çox ağacdan istifadə edilirdi. Bu da onunla bağlıydı ki, irokezlərin kəndləri daimi yaşayış yeri deyildi. Onlar  bu evlərdə uzun müddət yaşamırdılar, hər 10-15 ildən bir öz yerlərini dəyişib başqa yerlərə köçürdülər. Bu evləri quranda da onların daha asan sökülüb-yığılmasını nəzərə alırdılar. Əlimizdə olan bəzi qaynaqlardan göründüyü kimi irokezlər özlərini “xode nosauni”, yəni “uzun evin adamları” adlandırırdılar ki, bu da onların yaşayış evlərinin quruluşu ilə bağlıydı.

Ağaclardan hazırlanan bu evlərin adətən hündürlüyü dörd fut və uzunluğu isə on beş fut olurdu. Bu evlər yan divarları olan düzbucaqlı formasında inşa olunurdu. Hər iki tərəfdən cüt dirəklər basdırılırdı və onları yuxarıdan bir-birinə bağlayırdılar. Eyni zamanda hər iki ucu möhkəm çəngəlli dirəklərdən də istifadə olunurdu. Yan tərəflərdən xırda dirəklər düzülürdü. Damın üzərini ağacla (linn adlanan qabıqla) örtürdülər. Ayı dərilərindən qapı kimi istifadə edirdilər. Ocaq evin ortasında olurdu və yuxarıda baca üçün yer qoyulurdu. İçəridə hər iki divar boyunca ağac taxtlar düzəldilirdi (5-ci şəkil). 1755-ci ildən 1759-cu ilə qədər Ohayo Wyandot və Mingo qəbilələri arasında əsir olan Ceyms Smit öz qeydlərində bildirmişdi ki, bu tip evlərdə səkkiz ovçu və on üç qadın və uşağın yaşaması mümkündür. Eyni zamanda o söyləmişdi ki, "Burada qalmağımız gözlədiyimdən qat-qat yaxşı idi". Bu tipli uzun evlər əsasən İrokez, bəzən Delaver və Şavni qəbilələrinə aid edilir [6, səh. 6]. Buradan aydın olur ki, uzun evlər bir neçə ailənin yaşaya bilməsi üçün nəzərdə tutulmuşdur.



***5-ci şəkil. İrokezlərin uzun yaşayış evinin daxili götünüşü***

DOI:10.30546/gdu.5.2025

Mayyalar bir qayda olaraq təbii su hövzələrinin həndəvərində məskunlaşırdılar. Bu da onunla bağlıydı ki, su həyat mənbəyiydi. Həmin sulardan həm içmək, həm də balıq və s. ovlamaq üçün istifadə edirdilər. Onların evləri yerin üstündə tikilən, qazma olmayan daxmalar idi (6-cı şəkil). Bu evlərin damı şəkildən göründüyü kimi, xeyli hündür olurdu. Onlar yaxşı bilirdilər ki, hündür evlərin havası daha təmiz olur. Mayyalılar evlərin divarlarını içəridən ağardırdılar. Bu məqsədlə əhəngdən istifadə edirdilər. Evlərin önündə çardaqlar düzəldirdilər və qapı birbaşa bayıra yox, çardağa açılırdı. Kəndin şenlik adlanan ortasında məbəd və meydançalar tikirdilər. Bu tipli evlərə türklər yaşayan bəzi bölgələrdə indi də rast gəlinir.

Asteklər evlərin və çardaqların damını aqava bitkisinin yarpaqları ilə örtürdülər. Yarpaqları elə düzürdülər ki, evə yağış düşmürdü. Bəzi hallarda yarpaqların üstündən saman da döşəyirdilər. Bu da daha çox evi yayda sərin, qışda isti saxlamaq məqsədi daşıyırdı. Asteklər yaşayış evlərinin tikilməsində yerli material olduğuna və ucuz başa gəldiyinə görə əsasən qamışdan istifadə edirdilər. Həmin bu evlərin divarlarını içəridən palçıqla suvayırdılar. Bir qədər varlı adamlar isə evlərini çiy kərpicdən və daşdan tikirdilər. Belə evlər daha çox birmərtəbəli, nadir hallarda isə ikimərtəbəli olurdu. Dam örtüyünü dirəklər saxlayırdı.

Qamış evlərdən vaxtilə türklər də istifadə etmişlər. Azərbaycanın aran bölgəsində belə evlərə son vaxtlara qədər rast gəlinirdi. Ola bilsin ki, bəzi kəndlərdə belə evlər indi də var.



***6-cı şəkil. Mayyaların yaşayış evi***

Mayyaların və asteklərin yaşayış məskənlərində bir neçə böyük məbədlər də tikilmişdir. Bu məbədlər tikintisində piramidaların üslubundan istifadə edilmişdi. Məbədlərdə allahların heykəllərinə, qurban verilən yerə-mehraba pərəstiş və digər əşyalara rast gəlmək mümkündür. Bu cür məbədlərlə biz ilk dəfə Şumer mədəniyyətində qarşılaşırıq. Onlar da bütün məbədlərdə şəhərin qoruyucu tanrısının və digər qoruyucu, hami ruhların heykəllərini qoyurdular. İnanırdılar ki, həmin heykəllər pis varlıqları içəri buraxmır. Məbədlərin çöl divarlarında pəncərələr olmur və adətən qırmızı rəngə boyanırdı. Hər bir məbəddə ona baxan, qulluq edən bir və nadir hallarda 2 ailə yaşayırdı.

DOI:10.30546/gdu.5.2025



***7-ci şəkil. Asteklərin yaşayış evləri***

İnklər digər hindu tayfaları arasında özlərinin tikinti işlərindəki ustalıqları və bacarıqları ilə fərqlənirdilər. İnklər daha çox bir mərtəbəli yaşayış evlərində yaşayırdılar. Evlərin divarlarını daşdan və kərpicdən hörürdülər. Üstünə qamış və saman döşəyirdilər. Bu evlərin dam örtüyü yastı olurdu. Evlərə pəncərə qoymurdular. Evə işıq yalnız qapıdan düşürdü.

Beləliklə, yuxarıda deyilənlərdən aydın görünür ki, Amerikanın hindu tayfaları çox qədim tarixə və mədənityyətə malik olduqları kimi, özlərinə məxsus bir çox ev tipləri yaratmışlar. Onlar ev tikintisi sahəsində də zəngin təcrübə toplamış, maraq doğuran bir mədəniyyətə imza atmışlar. Onlar əsasən yay və qış evlərində yaşamışlar. Daimi yaşayış evləri də olmuşdur. Bunlar onların həyatı və məşğuliyyəti ilə bağlıydı. Deyilənlərdən və şəkillərdən göründüyü kimi, onların ev tipləri arasında müəyyən oxşarlıqlar və fərqlər nəzərə çarpır. Ən maraqlısı odur ki, Amerikanın hindu tayfalarının bir çox ev tiplərinə türk xalqlarının həyatında da rast gəlmək olur. Ev tipləri arasındakı bu cür oxşarlıqlar Amerikanın hindu tayfalarının və türk xalqlarının maddi mədəniyyətləri arasında qədim köklərə dayanan bir tarixi bağlılıq olduğunu düşünməyə əsas verir. Yuxarıda bununla bağlı bəzi araşdırmalarda söylənən fikirlərə toxunulmuşdur. Ona görə də bu istiqamətdəki tədqiqatları daha da genişləndirməyə ehtiyac duyulur.

## *Ədəbiyyat*

1. Ahmet A.A. Amerika yerli kizilderili ve türk halk kültüründe destanlaşmiş şamanlar, gün ana ve toprak ana// DergiPark. Yıl 2015: Sayı:2, 53-85

2. Eroğlu, M. A. ve Puran, F. (2023). Kuzey Amerika Kızılderili ve Türk Kültüründe Ok ve Yay Çantaları. Korkut Ata Türkiyat Araştırmaları Dergisi, 11, 987-1008.

3. Eroğlu, M. A. Kızılderililer ve Kıyafetler // Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi Eylül 2018 22(3): 1677-1694

4. Данчевская О.Е. Индейское наследие в американской культуре // Сборник материалов Международной конференции «Язык, культура, речевое общение»: В двух частях. М.:, 2009. Часть 1. С. 170-173.

5. Хазбулатов А.Р., Болдыкова Ж.Б., "**Истоки этнической и культурной общности тюрков и индейцев Северной Америки (антропологический аспект)**" // Қазақстанның ғылымы мен өмірі – Наука и жизнь Казахстана Science and life of Kazakhstan. №4 (31). 2015, с.178-182

DOI:10.30546/gdu.5.2025

6. Historic American İndian tribes of Ohio (1654-1843) // The Ohio Historical Society 1982 Velma Avenue Columbus, OH 43211. 38 page
7. Native Americans and Westward Expansion: Cultures and Conflicts //Core Knowledge Curriculum Series™ Series Editor-in-Chief E. D. Hirsch, Jr. 2017, 155 p

## ЖИЛЬЯ И ТИПЫ ДОМОВ, КОТОРЫЕ СТРОИЛИ АМЕРИКАНЦЫ ИЗ ДЕРЕВА

***Садикли Париназ Ислам кызы***

***Резюме***

Наряду с историей, географией и литературой каждого народа необходимо изучать и его этнографию. Её основными составляющими являются материальная культура, духовная культура и семейный быт. Материальная культура включает поселения, хозяйственную жизнь, ремесла, одежду и украшения, еду и напитки, средства передвижения и т. д. Наука, образование, литература, народная медицина, музыка, игры и развлечения, верования, религиозные убеждения и т. д. являются важными составляющими духовной культуры. Семейная жизнь включает в себя семью, брак, похороны, свадебные обычаи, гостеприимство, наречение, воспитание детей и т. д.

Территория проживания американских эскимосов и алеутов считается историко-этнографической провинцией. Они обитают в арктической и субарктической зонах Америки, от Берингова пролива до Гренландии. В основном они расселены на Аляске, в Канаде, Мексике, США и Гренландии.

Племена эскимосов и алеутов, живущие в Америке, имеют очень богатую и красочную культуру. Эта культура до сих пор не изучена в достаточной мере в Азербайджане, хотя в настоящее время существует большая потребность в ее изучении. Первой причиной этой необходимости является сходство и некоторые черты сходства между культурой эскимосских и алеутских племен и культурой тюркских народов. Эти сходства и схожести становятся все более очевидными по мере знакомства с культурами эскимосов, алеутов, алгонкинов, ирокезов, майя, ацтеков и инков.

В статье рассматриваются поселения и жилища индейских племен Америки, таких как эскимосы, алеуты, алгонкины, ирокезы, майя, ацтеки и инки. При необходимости также затрагивалось сходство между ними и жилищами тюркских народов.

## TYPES OF WOODEN DWELLINGS AND HOUSES BUILT IN AMERICA

***Sadiqli Parinaz Islam gizi***

***Summary***

Along with the history, geography, and literature of each nation, its ethnography should also be studied. The main components of ethnography include material culture, spiritual culture, and family life. Material culture refers to settlements, economic life, crafts, clothing and ornaments, food and drinks, means of transportation, etc. Science, education, literature, folk medicine, music, games and entertainment, beliefs, religious beliefs, etc. are important components of spiritual culture. Family life includes family, marriage, funerals, wedding customs, hospitality, naming, raising children, etc.

The territory inhabited by the American Eskimo and Aleut tribes is considered a historical ethnographic province. They live in the Arctic and subarctic zones of America, from

DOI:10.30546/gdu.5.2025

the Bering Strait to Greenland. They are mainly settled in Alaska, Canada, Mexico, the United States, and Greenland.

The Eskimos and Aleut tribes living in America have very rich cultures. This culture has not yet been adequately studied in Azerbaijan. However, in the modern era, there is a great need to study it. The first reason for this need is some similarities between the culture of the Eskimo and Aleut tribes and the culture of the Turkish people. These similarities become more apparent when we become closely acquainted with the culture of the Eskimo, Aleut, Algonquin, Iroquois, Mayan, Aztec, and Inca tribes.

This article examines the settlements and houses of the Indian tribes of America, such as the Eskimos, Aleuts, Algonquins, Iroquois, Maya, Aztecs, and Incas. Where appropriate, the similarities between them and the houses of the Turkic peoples are also touched upon.

***Rəyçi: AMEA A.Bakıxanov adına Tarix institutunun baş elmi işçisi, tarix elmləri doktoru İlham Həsənov***

***Daxil olma tarixi 06 oktyabr 2025-ci il***